Unudulmaz xarakterlər yaradan sənətkar

"Ayravana, ayravana çantrika, çitrakuda, çitrakuda işvara" məşhur "Sehrli xalat" filminin qəhrəmanı olan xanın keçmişə qayıtmaq üçün işlətdiyi bu sözlər yəqin ki, hər birimizin yaddaşındadır. Bu sözlərin realda heç bir mənası olmasa da, üzümüzdə gülüş yaratmaq gücü var.

"Sehrli xalat" filmində Əliağa Ağayevin canlandırdığı Hüseynqulu xan obrazı Azərbaycan kinosunda unudulmaz xarakterlərdən biridir. Bu obraz aktyorun böyük sənətkarlığının və komediya janrında olan xüsusi bacarığının nümunəsi idi. Hüseynqulu xan həm xarakterinə, həm də oyun üslubuna görə Azərbaycan kinosunun ən sevilən və ən xatırlanan obrazlarından biridir. Teatr sahəsində adını əbədi yazdıran və məhəbbətlə xatırlanan sənətkarın sənət dünyasındakı yerinin özünəməxsusluğu və gülüşün ustası yaddaşlarda yaşayır.

1913-cü ilin martında Bakı şəhərində dünyaya gələn Əliağa Ağayev dəmirçi peşəsinə yiyələnmək məqsədilə sənət məktəbinə daxil olub. Burada çilingərliyi öyrəndiyi illərdə təsadüfən qoşulduğu dram dərnəyində onun sənətə olan sevgisi özünü büruzə verib. İlk vaxtlar sadəcə hobi olaraq başlayan bu maraq zamanla böyük səhnə sevgisinə çevrilib. Əliağa Ağayevin sənətə olan bağlılığını əks etdirən xatirələrindən biri də ustasının ona aktyorluğu təklif etməsi ilə bağlıdır. O, hələ gənc yaşlarında ikən teatrda və səhnədə öz yolunu tapmışdı. Teatrda göstərdiyi təbii və enerjili performansları onu çox keçmədən tamaşaçılar tərəfindən sevilən bir usta statusuna qaldırmışdı.

Gənc yaşlarından kinoda da addım atan Əliağa Ağayev ilk böyük rolunu 1956-cı ildə "O olmasın, bu olsun" filmində Məşədi İbad obrazında oynayıb və böyük şöhrət qazanıb. Onun oynadığı bu rolu zamanla xalqın dilinə düşən bir monoloqa çevrildi. Filmlərdə yaratdığı başqa obrazlar da tamaşaçılar tərəfindən sevilmiş və onun sənətinə olan hörmət artmışdı. 1961-ci ildən etibarən Azərbaycan Dövlət Akademik Dram Teatrında fəaliyyət göstərən Əliağa Ağayev burada böyük uğurlara imza atmışdır. Sənətinə olan sevgisi və təbiiliyindən irəli gələrək səhnədə yaratdığı hər bir obrazı özünəxas şəkildə təqdim etmişdir. Onun teatr və kino sənətində yaratdığı obrazlar, insanların mənəvi dünyasına toxunan, sadə, amma dərindən təsiredici xarakterlər idi.

Əliağa Ağayevin teatrda sərgilədiyi ustalıq kino sahəsində də özünə yer taparaq onu daha da məşhurlaşdırmışdır. İstedadlı sənətkar Azərbaycan teatr və kino sənətinin parlaq nümayəndəsi kimi həm səhnədə, həm də ekranlarda canlandırdığı müxtəlif obrazlarla yaddaşlarda iz qoymuşdur. O, Gənc Tamaşaçılar Teatrında başladığı peşəkar karyerasında çoxsaylı müasir və klassik əsərlərdə rol alaraq teatr sənətində müstəsna bir yer tutmuşdur. Əliağa Ağayev həmçinin Akademik Milli Dram Teatrında bir çox tamaşalarda mühüm rolları canlandırmış, xüsusilə Şekspirin "Hamlet" və "Fırtına" əsərlərindəki Stefano və Birinci məzarçı kimi klassik rollarda özünü göstərmişdir. Onun həmçinin kinoda və televiziyada müxtəlif epizod və əsas rolları ilə yaddaqalan işləri olub. Teatrda komik xarakterləri yaratma tərzi çox müsbət qarşılanmış, komizmi sadəcə zahiri əlamətlərdə deyil, həm də daxili dünyasında tapmağa çalışmışdır. Əliağa Ağayevin sənətindəki təbiilik və dərinlik onun aktyorluq bacarığının əsas xüsusiyyətləridir. Onun yaratdığı obrazlar hələ də Azərbaycan teatr və kinosunun ən qiymətli nümunələrindən biridir.

Ömrünün son illərində belə gülüşü və zarafatı ilə insanların üzündə təbəssüm yaradan Əliağa Ağayev 13 noyabr 1983-cü ildə sonsuz sevgi ilə bağlı olduğu sənətini xalqın yaddaşına əbədi bir iz buraxaraq dünyasını dəyişib.

Nurcan SÜLEYMANOVA,
"Respublika".